*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 309-316*

https://doi.org/10.62837/2025.6.309

**AĞALAROVA NÜBAR MƏCID QIZI**
Phd tələbəsi və ingilis dili müəllimi
İngilis dili və ədəbiyyatı departamenti, Xəzər Universiteti
Nubar.Agalarova@khazar.org

# Hakslidən İşiquroya qədər Britaniya distopik ədəbiyyatında texno mədəniyyətin təkamülü

**Xülasə**

Bu məqalə texno mədəniyyət anlayışını və Oldos Hakslinin "Yeni cəsur dünya" (1932) və Kazuo Işiquronun "Məni heç vaxt tərk etmə" (2005) əsərlərinin müqayisəli analizi vasitəsilə Britaniya distopik ədəbiyyatında texno mədəniyyətin inkişafını araşdırır. Texno mədəniyyət, insan həyatına texnologiya və elmin təsir etdiyi bir mədəniyyət növüdür və hər iki roman fərqli tarixi və ideoloji perspektivlərdən yanaşaraq texnologiya və mədəniyyətin kəsişməsini araşdırır. Yetmiş ildən çox bir-birindən ayrılsa da, bu əsərlər texnoloji inkişafla mədəniyyətin bir-birini formalaşdırdığı müasir texno mədəniyyət dövründə Britaniya ədəbiyyatının hansı mövqe tutduğunu göstərən əhəmiyyətli sübutlardır. Haksli, texnologiyanın fərdiliyi boğmaq və vahidliyi gücləndirmək üçün açıq şəkildə istifadə olunduğu bir dünyanı təsəvvür edərkən, İşiquro isə biomedikal irəliləyişlərin sakitcə insanlığı dehumanizasiya etdiyi və kənarlaşdırdığı incə bir distopiya təqdim edir. Məlum olduğu kimi robotlar, süni insanlar, insan klonları, ağıllı kompüterlər və onların insan cəmiyyəti ilə mümkün toqquşmaları 20-ci əsr ədəbiyyatında yazılan ən görkəmli əsərlərin əsas mövzuları olmuşdur və bu mövzuları özündə daha çox cəmləşdriən məhz Hakslinin "Yeni Cəsur Dünya" və İşiquronun "Məni heç vaxt tərk etmə" əsərləridir. Nəticə etibarilə, bütün bu mövzular bizi yaşadığımız dünya və onun üzərində nə qədər nəzarətə malik olduğumuzu yenidən düşündürməyə və həyatımız və dünya haqqında dərin qorxularımızı əks etdirməyə dəvət edir.

**Açar sözlər;** texno mədəniyyət, distopiya, incəsənət, texnoloji nəzarət, klonlaşdırma, biopolitik

**Texno mədəniyyət anlayışı və onun təkamülü;** Texnologiya 20-ci əsr müasir sivilizasiyasının əsas müəyyənedici amilidir. 20-ci əsrin əvvəllərindən başlayaraq, o, bütün elm sahələrinə təsir etməyə başladı.Elm və texnologiyanın qeyri-adi inkişafı, insanın dünyadakı mövqeyinə, inanc və dəyərlərə təsir edərək Qərb dünyasını formalaşdıran dəyişikliklərə səbəb oldu. Modernizm dövründə (1900-1960) və postmodernizm dövründə (1960-1990) insanlar çoxlu məlumatla yüklənmişdir və texnologiya insanların həyatının ayrılmaz bir hissəsinə çevrilmişdir, reallığı anlamaq simulyasiyası isə texnologiya vasitəsilə həyata keçirildi və nəticə etibarı ilə iki sözün birləşməsindən ibarət olan "texno-mədəniyyət" anlayışı formalaşmağa başladı.Texno mədəniyyət bir termin olaraq müxtəlif nəzəriyyəçilər tərəfindən tərif edilmişdir. Bu

termin ilk dəfə 1960-cı illərdə Henri Burger tərəfindən işlədilmişdir. Burger yazdığı məktubda bu termini "texnologiya və texno mədəniyyət anlayışı arasındakı qarşılıqlı əlaqəni" ifadə etmək üçün yeni bir disiplin olaraq təklif etdi, bu da mədəniyyət və texnologiyanın eyni anda işləməsini ortaya qoydu. O, mədəniyyətin və texnologiyanın bir-birinə necə təsir etdiyini və formalaşdırdığını vurğuladı. Postmodern tendensiyaların nəzəriyyəçisi Fredrik Ceymson (1991) bunu "Post sənaye dövrünün mədəniyyəti" və "gec kapitalizmin mədəniyyəti" adlandırdı. O, texno mədəniyyəti postmodern cəmiyyətin mühüm elementi kimi görür, burada texnologiya yalnız mədəni istehsala təsir etmir, həm də sosial münasibətləri və təcrübələri dəyişdirir. Fransız mədəniyyət nəzəriyyəçisi Jean Baudrillard (1994) postmodernliyi hiperreallıq mərhələsi kimi xarakterizə edir; burada "simulakrlar" – yəni reallığın təmsilləri və simulyasiyaları – artıq gerçəyin yerini tutmuş və nəticədə insanlar real olanla qeyri-real olan arasında fərq qoymaqda çətinlik çəkirlər.

Britaniya ədəbiyyatında texno mədəniyyətin yaranması Meri Şellinin “Frankenşteyn” (1818) əsəri ilə başlayır. Bu həmçinin sənaye inqilabının narahatlıqlarını əks etdirən elmi təcrübə və texnoloji yaradılışın təhlükələrini və nəzəri dilemmalarını tədqiq edən ilk elmi-fantastik roman kimi qeyd edilir. Texnologiya, daha sonralar xarici məkana səyahət və ziyarətlər formasında ədəbiyyatda özünü nümayiş etdirdi. İngilis romançısı Herbert George Üels "Vaxt Maşını" (1895) ilə mövcud problemlərdən qaçma ümidiylə gələcəyə səyahət edən bir vaxt maşını icad etdi. 20-ci əsrin əvvəllərində, Henri Fordun avtomobili və onun istehsal xətti kimi müasir texnoloji və elmi irəliləyişlər daha sonra robotların istifadəsini yaratdı, elmi-fantastika yazıçılarını tamamilə avtomatlaşdırılmış/kompüterləşdirilmiş bir dünyanı təsəvvür etməyə vadar etdi. Virginia Woolf, "Mrs Dalloway" (1925) əsərində gündəlik həyat və sosial əlaqələrdə motorlu avtomobil və telefon kimi texnologiya yeniliklərini təsvir edir. Bu meyl, 20-ci əsrin ortalarında Corc Oruell'ın "1984" romanı və Oldos Hakslinin "Yeni Cəsur Dünya" romanı ilə davam etdi. 21-ci əsrin əvvəllərin də isə biotexnologiya meydana çıxıdı və bu mövzu Kazuo İşiquronun "Məni heç vaxt tərk etmə" (2005) əsərində öz əksini tapdı.

Texnologiya insan həyatına daha çox inteqrasiya etdikcə ədəbiyyat bu inteqrasiya haqqında ümid və qorxu hisslərini əks etdirməyə başladı. Oldos Hasklinin “Yeni Cəsur Dünya" və Kazuo İşiquronun "Məni heç vaxt tərk etmə" əsərləri distopik ədəbiyyatın əsas əsərləri kimi texno mədəniyyətin yalnız idarəçiliyə və cəmiyyət strukturlarına deyil, həm də şəxsi kimliyə və insan münasibətlərinə necə təsir etdiyini göstərir. Haksli və İshiguro, hər biri tamamilə fərqli dövrlərdə yazsalar da, texnoloji sistemlərin cəmiyyəti necə yenidən təşkil edə biləcəyini və insan olmağın nə demək olduğunu necə yenidən müəyyən etdiyini araşdırırlar. Britaniya distopiya ədəbiyyatı, xüsusilə, texnologiyanın necə istifadə edilə biləcəyini, ya azad etməyi, ya da basqı etməyi davamlı şəkildə sorğulayıb. Haksli və İşiquro bu ənənənin

iki mərhələsini təmsil edir. Hakslinin müharibələrarası konteksti Fordizm, istehlakçılıq və totalitarizmin yüksəlişi ilə xarakterizə olunur, İşiquronun post-genomik dünyası, biotibbin, gen mühəndisliyinin və etik nisbiləşmənin doğurduğu narahatlıqları əks etdirir. Hər iki müəllif müvafiq texnologiya mədəniyyəti anlarının mənəvi təməllərini sorğuya çəkən distopik mühitlərdən istifadə edir.

**Yeni Cəsur Dünya: texnologiya ilə kütləvi idaretmə və mexanikləşdirilmiş xoşbəxtlik**; Haksli'nin Yeni Cəsur Düunya əsəri texnoloji səmərəlilik və sosial sabitliyin hər şeydən əvvəl gəldiyi gələcək bir cəmiyyətdə İngiltərədə 2540-ci ildə baş verir. Bu cəmiyyətdə texnologiya gündəlik həyatın hər bir elementi üzərində nəzarət edir- insanın doğulduğu andan öldüyü ana kimi. Mənfi emosiyalar da daxil olmaqla cəmiyyətin bütün problemləri, doğum nisbəti, işçi qüvvəsi texnologiya ilə həll edilir. Yeni Cəsur Dünyada yaşayan insanlar Qlobal Dövlət Hökuməti tərəfindən idarə olunur, uşaqlar təbii yolla dünyaya gəlmirlər, əksinə, Bokanovski Prosesi və Podsnap Texnikası vasitəsilə insanlar şüşə borularda yaradılır və onlar kütləvi istehsal olunan bioloji vahidlərə çevrilir. Bu dünyada Ford Tanrının yerini almış və Fordizm xristianlığın yerini tutmuşdur. Bu cəmiyyətdə hətta xoşbəxtlik, bərabərlik və sabitlik texnologiya vasitəsilə təmin edilir. İnsanları intellektual, sosial və mədəni mübahisələrdən uzaq tutmaq, həmçinin sosial etirazların və şikayətlərin qarşısını almaq üçün hökumətin icraçı direktorları insanlara o qədər sevinç və zövq verir ki, onlar öz problemləri haqqında heç vaxt düşünmürlər. Andrü Vernik (2001) qeyd edir ki, Haksliyin bu distopiyası "texnologiyanın insan ruhunu səmərəli zövq və itaət sistemləri ilə əvəz etdiyi bir gələcək qarşısında xəbərdarlıqdır." Dövlətin sabitliyini və gündəlik fəaliyyətlərini pozacaq hər hansı bir şey etmək qadağandır. Buna görə də, insanların davamlı zövq almasını təmin etmək üçün xoşbəxtliyi təşviq edən texnologiya yaradılmışdır. Belə bir texnologiyanın geniş yayılmış nümunəsi Soma adlı bir maddədir ki, bu da mənfi yan təsirlərdən məhrumdur və dərman kimi fəaliyyət göstərir.İnsanlığın itirilməsi somanın istifadəsi ilə daha da dərinləşir; "Bir qram soma səni bütün dərdlərdən azad edər" (Yeni Cəsur Dünya, fəsil 6). İnsanlar əsəbi vəziyyətlərlə qarşılaşdıqda, özlərini bərpa etmək və yeniləşmək üçün "soma tətili" götürməyə təşviq olunurlar. Həmçinin, insanlar "həmrəylik xidməti" adlanan bir yığıncaqda iştirak edirlər, burada insanlar bir araya gələrək soma qəbul edirlər. Bu maddə, eyni zamanda, cəmiyyətdəki insanları çətinliklərə qarşı laqeyd etmək üçün bir vasitədir, onları məmnun saxlamaq və narazılıq ya da üsyan kimi hisslərini nəzarətdə saxlamaq məqsədini güdür.İnsan beynini idarə etməyin ən effektiv və səmərəli yolu olaraq texnologiya fiziki olaraq təhsilə müdaxilə edir. Bu hipnoz (hipnopaediya) metodu ilə həyata keçirilir. Hipnoz, yuxu-dərsi metodudur və insanların beynini yumaq üçün istifadə olunur. Fərdlərə yuxuda nə düşünməli olduqları öyrədilir və onların sosial rolları öncədən proqramlaşdırılır. Din, incəsənət və ədəbiyyat güclü emosiyalar oyandırdığı və cəmiyyətdə qeyri-sabitliyə səbəb ola biləcəyi üçün qadağan olunur. Şeksprin əsərləri qadağa altındadır, çünki Mustafa

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 309-316*

Mondun qeyd etdiyi kimi "Köhnə şeylərə ehtiyacımız yoxdur, adamlarımızın köhnə şeylərə aludə olmasını istəmirik. Onları yeniliklər cəlb etməlidir" (Yeni Cəsur Dünya, fəsil 16). Bu yeniliklər dünyasında incəsənət fellies adlanan (toxunma və hiss etmə) filmləri və süni musiqi ilə əvəz olunur. Sabitlik və səmərəlilik, fərdiliyin, dərin hisslərin və ənənəvi sənətin qurban verilməsi hesabına əldə edilir. Mustafa Mondun vurğuladığı kimi, "Stabillik xatirinə biz qurbanlara gedirik. Biz seçim qarşısında qaldıq; bir zamanlar yüksək incəsənət adlandırlıan məhfumla xoçbəxtlik arasında. Biz yüksək incəsənəti qurban verdik. Əvəzində bizim duyğu filmlərimiz var". Bu da onu göstərir ki,yaradıcılıq cəmiyyət üçün qurban verilməlidir. Bundan əlavə texnologiya şəxsi azadlıqları boğmaqda və bədii qabiliyyətlərin həqiqi inkişafını əngəlləməkdə mühüm rol oynayır. Cəmiyyət kast sistemi ətrafında qurulub, burada hər bir sinif fərqli rənglərlə tanınır. Əsas siniflər Alfa, Beta, Qamma, Delta və Epsilonlardır. Bu kast nizamı sosial sabitliyi və nəzarəti təmin etmək məqsədini güdür, beləliklə, fərdləri doğumdan etibarən xüsusi rollara təyin edir və bu əvvəlcədən müəyyən edilmiş kateqoriyalar əsasında onların sənət və yaradıcılığa çıxışını məhdudlaşdırır. Alpha embrionları dünya dövlətində lider və intellektual olmaq üçün dizayn edilmişdir, bu zaman hər sonrakı kast daha az fiziki və intellektual qabiliyyətlərə sahib olmağa şərtləndirilmişdir. Deltalar, qeyri-intellektual sinfə aid edilənlərdir. İnsanları kastalara bölünməsi texnologiyanin biopolitik gücünü göstərir.

**Məni heç vaxt tərk etmə: Sakit Distopiya və Biomedikal Etika;** "Məni heç vaxt tərk etmə' romanında Işiquro, biomedikal texnologiya tərəfindən formalaşdırılmış, sakit və emosional olaraq yaxın bir dystopiya təqdim edir. O bu romanda 20-ci əsrin unikal bir dünyasını yaradır, haradaki insanlar texnologiyanı xoşbəxtlik, sağlamlıq və uzunömürlülük tapmaq üçün yanlış istifadə edirlər. Müalicəsi mümkün olmayan xərçəng və digər xəstəliklər tibbi irəliləyişlər sayəsində uğurla müalicə edilir. Mədəniyyətin acgöz tamamlayıcı tərəfi insan ömrünü uzatmaq üçün klonların orqanlarını istifadə etməyə yönəlir. İşiquronun bu romanı, klonların orqan donoru olmaq üçün yetişdirildiyi səssiz, emosional olaraq yüklənmiş bir dünyada baş verir. 1990-cı illərin sonlarında İngiltərədə Helşeym adlanan xüsusi məktəbdə klonlaşdırılmış uşaqların koloniyası yaradılır. Klonlar yetkinlik yaşına çatdıqda onların həyati vacib orqanları bir-bir götürülür və başqalarının xəstəliklərini sağaltmaq üçün istifadə olunur və bir neçə donordan sonra klonlar həyatlarını itirirlər. Əsərdə klonlama və orqan toplama - heç vaxt təfərrüatlı şəkildə təsvir edilmir. Əsərin baş qəhrəmanları olan Rut, Tommi və Keti orqanlarını bağışlamaq üçün xüsusi olaraq yaradılan klonlardır. Dəhşət, onların dünyasının adi və emosional reallığında gizlidir. Yeni Cəsur Dünyada texnologiya insan həyatına açıq və sistemli şəkildə idarə ederkən, "Məni heç vaxt tərk etmə" romanında texnologiya insan həyatını daha sakit, amma faciəvi şəkildə idarə edir. Hakslinin açıq şəkildə texnoloji olan dünyasından fərqli olaraq, İşiquronun dünyası demək olar ki, texniki

təsvirlərdən tamamilə məhrumdur. Klonlama elmi arxa planda qalır və klonların yetişdirildiyi Helşeym məktəbində onlara yaradıclıq və insanlıq təbliğ edilir. Şagirdlər rəsm çəkmək və şeir yazmaq üçün həvəsləndirilirlər, bu isə normal görünüşü qorumaq üçün diqqətli bir şəkildə nəzarət edən mühafizətçilərin nəzarəti altında həyata keçirilir. Ancaq bu sənətin məqsədi azadlıq deyil: klonların ruhlarının olduğunu sübut etmək üçün bir təcrübə üsuludur. Miss Emilinin daha sonra açıqladığı kimi, "Bunu sizin ruhlarınızın olduğunu sübut etmək üçün etdik" (Məni heç vaxt tərk etmə, fəsil 21) Şagirdlərin ən yaxşı rəsm əsərləri qalereya üçün toplanirdı. Texnologiyanın insanı obyektə çevirdiyi bir dövrdə ilk baxışdan qalereya bu prosesə qarşı simvolik bir insanpərvərlik reaksiya kimi görünürdü. Klonların bioloji alətlər kimi qiymətləndirdiyi cəmiyyətdə, qalereya onların ruhlarının olduğunu göstərmək məqsədini daşıyırdı.Qalereyanın ideyası Helşeym tərəfindən tələbələrin şüuruna onların ən yaxşı yaradıcı işlərinin təqdim edildiyi bir yer olaraq yedidilmişdir. Əslində isə qalereya yaradıcıq məkanı olmaqdan uzaq olan texnoloji bir eksperimentdir — etik baxımdan kompromisə uğramış bir sistemi əsaslandırmağa yönəlmiş biopolitik bir tədbirdir. İşiquronun distopiyası, emosional manipulyasiyaya və tabeçiliyə dayanır. Bu baxımdan Bruce Robbins (2007) İşiquronun romanının "emosional qabiliyyətin texnoloji cəhətdən inkişaf etmiş cəmiyyətdə şəxsiyyətin yaradılması üçün kifayət olub-olmaması" sualını irəli sürür. Klonlar heç vaxt müqavimət göstərmirlər, onların faciəsi onlara həyatlarını verməyin normal olduğunu düşünmələridir, bu da "Yeni Cəsur Dünya" ilə müqayisədə əxlaqi və emosional bir idarəetmə formasıdır. Miss Lusi, şagirdləri qaydalara əməl etməyə təşviq edir və onların pozulmasının müəyyən cəzalarla nəticələnə biləcəyini mütəmadi olaraq xatırladır; "Sizin həyatınız öz ixtiyarınızda deyil.Siz böyüyəndən sonra qocalmağa, hətta orta yaşa çatmağa macal tapmamış həyati orqanlarınızı başqalarına verməyə başlayacaqsınız. Hər biriniz bu məqsədlə yaradılmısınız. Bunu yadda saxlamalısınız. Əgər layiqli həyat yaşamaq istəyirsinizsə, kim olduğunuzu və hər birinizi nələrin gözlədiyini bilməlisiniz" (Məni heç vaxt tərk etmə, fəsil 6). Beləliklə, İşiquronun texnoloji mədəniyyəti, görünüşü ilə deyil, səssizliyi ilə müəyyən edilir.

**Texnoloji Nəzarət və İncəsənətin taleyinin müqayisəli təhlil;** Yeni Cəsur Dünyadan Məni heç vaxt tərk etmə romanına keçid, texno mədəniyyətin təsvirində əhəmiyyətli bir dəyişiklik yaradır. Hakslinin gələcəyə baxışı sənaye və mexaniki, İşiquronun isə biotexnoloji və hissi xarakterlidir. "Yeni cəsur dünya"da təhdid, zorakı nəzarətdən çox, zövq və davranış yönləndirilməsi yolu ilə həyata keçirilən xarici nəzarətə əsaslanır və burada idarəetmə mexanizmləri çox görünəndir: kütləvi istehsal, kimyəvi sakitləşdirmə və dövlət təbliğatı. Məni heç vaxt tərk etmə romanında, təhdid, xarici məcburiyyətdən çox, fərdlərin daxili razılığı ilə özünü göstərir və burada daxildədir və görünmür. İncəsənət hər iki romanda mühüm rol oynayır və eyni zamanda hər iki roman texno mədəniyyət rejimləri altında incəsənət və emosiyanın dəyərinin azaldılmasında kəsişir. Yeni Cəsur Dünyada, sənət qadağan

edilir və ya əhəmiyyətsizləşdirilir, çünki o, sistemdə nizamsızlıq yarada bilər. Məni heç vaxt tərk etmə romanında isə, sənət insanlığın simvoluna çevrilir və klonların da əsil insanlar kimi ruhlarının olmasını sübut etmək üçün dioqnastika aləti kimi istifadə olunur. Lakin, hər iki roman, sənətin texnomədəni hakimiyyət qarşısında müqavimət göstərmək gücünə malik olub-olmadığını sual edir və hər iki romandakı bu ortaq motiv artan texnoloji vasitələşmə dövründə insan subyektivliyinin gələcəyinə dair dərinləşən narahatlığı əks etdirir.

**Texnonologiya mədəniyyətindəki narahatlığın dəyişməsi;** 1932 ilə 2005 arasında dəyişən yalnız texnologiyanın mahiyyəti deyil, eyni zamanda ictimaiyyətin ona münasibətidir. Haksli, insanların rahatlıq və rifah naminə kölə olacağı bir dünyadan qorxurdu; İşiquro isə insanların istismarını tanımadığı bir dünyadan qorxur, çünki bu, artıq normal vəziyyət kimi qəbul edilib. Bu isə açıq siyasi distopiyadan sakit etik dəhşətə keçid, real dünyada sənaye kapitalizmindən biopolitikaya keçidləri əks etdirir. Bu keçid, həmçinin ədəbiyyatın dəyişən həssaslığını əks etdirir. Haksli satiradan və geniş miqyaslı dünya quruculuğundan istifadə edərkən, İşiquro isə minimalizmə və emosional dərinliyə əsaslanan bir üslub tətbiq edir. Hər ikisi öz kontekstlərində güclü təsir bağışlayır, lakin İşiquronun metodu daha çox həyəcanlandırıcı ola bilər, çünki oxucuları öz mənəvi laqeydliyi üzərində düşünməyə vadar edir.

**Nəticə;** Britaniya distopik ədəbiyyatında texno-mədəniyyətin təkamülü, Haksli-dən İşiquroya qədər, mövzu mürəkkəbliyinin dərinləşdiyini göstərir. Hakslidən İşiquroya keçid, sənaye modernliyindən posthumanizmə doğru daha geniş mədəni keçidi əks etdirir ."Yeni Cəsur Dünya" texnoloji ifrat və mexaniki təşviq üzərindən qurulmuş açıq bir distopiyanı təqdim edərkən, "Məni Buraxma" daha səssiz və emosional yolla, etik narahatlıqlar vasitəsilə oxucunu sarsıdır. Hər iki roman texnoloji yeniliklərin insanlığı qurban edən cəmiyyətləri tənqid edir, lakin bu hər bir yazıçının yaşadığı dövrə uyğun olan yollarla həyata keçirilir. 21-ci əsrdə süni intellekt, biotexnologiya və nəzarət kapitalizmi insan həyatında yer aldığı bir dovrdə bu ədəbi fikirlər son dərəcə aktual qalır və bizə yalnız texnologiyanın nə edə biləcəyini deyil, hansı cür gələcək yaratmağı seçdiyimizi soruşmağı tövsiyə edir. Hər iki müəllif texnologiyanın inkişaf etdiyi cəmiyyətlərdə etik dəyərlərin və estetik hissiyatın arxa plana keçməsinin yaratdığı təhlükələr haqqında oxucuları xəbərdarlıq edir və onları belə bir sual ilə düşündürməyə vadar edir; texnologiyanın mədəniyyətə tam hakim olduğu bir dünyada nəyi itiririk?

## Ədəbiyyat

1. Oldos Haksli "Yeni Cəsur Dünya"
2. Kazuo İşiquro "Məni heç vaxt tərk etmə"
3. Andrew Wernick (2001). "Resignation and Utopia: The Moral Geography of Aldous Huxley's *Brave New World.*", Peter Pang, New York

4. Bruce Robbins 2007, "Cruelty Is Bad: Banality and Proximity in *Never Let Me Go*.", London
5. Mimura Takahiro (2012), "The Potential of Art as a Means to Keep Inner Freedom in Kazuo Ishiguro's Never Let Me Go"
6. Lela Zhamurashvili, 2014, "Dehumanized society in Aldous Huxley's Brave new world"
7. Mohammed Ali Hussein (2019) "Technoculture and Futuristic Dystopia: A close Reading of Miller's Conditionally Human", 8th & 9 thNovember
8. G.Ranga Saryanarayana, 2021, "The advancement of techno-culture in science fiction; a critical approach", SP Publications International Journal of English and Studies (IJOES), Volume-3, Issue-1, 2021, www.ijoes.in ISSN: 2581-8333; Impact Factor: 5.421(SJIF)
9. Hanyue Kuang, 2022, " Deconstructing Utopia: Discussion of the Theme of Brave New World", Francis Academic Press, UK, ISSN 2618-1568 Vol. 4, Issue 6: 54-65
10. Muhammad Mubashar Nawaz, 2022 "Evaluating Human Situation in the Age of Biotechnology: A Study of Huxley's Brave New World", Pakistan Languages and Humanities Review April-June, 2022, Vol. 6, No. 2[478-489]

**AGALAROVA NUBAR**

## From Huxley to Ishiguro; evolution of technoculture in British Dystopian Fiction

### Summary

This article explores the concept of techno culture and the development of techno-culture in British dystopian literature through a comparative analysis of Aldous Huxley's "Brave New World" (1932) and Kazuo Ishiguro's "Never Let Me Go" (2005). Techno-culture is a type of culture influenced by technology and science on human life, and both novels examine the intersection of technology and culture from different historical and ideological perspectives. Although separated by more than seventy years, these works are significant evidence of the position of British literature holds in the contemporary techno-cultural era, where technological development shapes culture. While Huxley imagines a world where technology is overtly used to suppress individuality and enhance conformity, Ishiguro presents a subtle dystopia where biomedical advancements quietly dehumanize and marginalize humanity. As it is known, robots, artificial humans, human clones, intelligent computers, and their possible clashes with human society have been the main themes of the most remarkable works written in 20th-century literature, and those that summarize these themes more are indeed Huxley's "Brave New World" and Ishiguro's "Never Let Me Go" Consequently, all these themes invite us to reconsider

our control over the world we live in and reflect our deep fears about life and the world.

**Keywords**; techno culture, dystopia, art, technological surveillance, cloning, biopolitics

**От Хаксли до Ишигуро: эволюция технокультуры в британской дистопической литературе**

**Резюме**

Эта статья исследует понятие техно-культуры и проводит сравнительный анализ произведений Олдоса Хаксли "О дивный новый мир" (1932) и Казуа Ишигуро “Не отпускай меня” (2005) для изучения развития техно-культуры в британской дистопической литературе. Техно-культура — это вид культуры, в которой технологии и наука влияют на человеческую жизнь, и оба романа исследуют пересечение технологий и культуры с различных исторических и идеологических перспектив. Хотя эти произведения разделяют более семидесяти лет, они являются значительными доказательствами того, какую позицию занимает британская литература в эпоху современной техно-культуры, где технологическое развитие формирует культуру. Хаксли представляет мир, в котором технологии явно используются для подавления индивидуальности и усиления унификации, в то время как Ишигуро предлагает тонкую дистопию, где биомедицинские достижения тихо дегуманизируют и маргинализируют человечество. Как известно, роботы, искусственные люди, клоны человека, умные компьютеры и возможные столкновения с человеческим обществом были основными темами самых выдающихся произведений, написанных в литературе XX века, и именно в таких произведениях, как "О дивный новый мир" Хаксли и “Не отпускай меня” Ишигуро, эти темы наиболее ярко представлены. В итоге все эти темы призывают нас заново задуматься о мире, в котором мы живем, и о том, насколько мы можем им управлять, а также отражают наши глубокие страхи относительно жизни и мира.

**Ключевые слова;** техно-культура, дистопия, искусство, технологический контроль, клонирование, биополитика

**Rəyçi: filologiya elmləri doktoru, professor Aytən Qəhrəmanlı**